AZƏRBAYCAN TİBB JURNALI
AZERBAIJAN MEDICAL JOURNAL

# MÜBARİZ QASIM oğlu ALLAHVERDİYEV – 80



Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, Azərbaycan Respublikasının əməkdar müəllimi, "Qızıl Qələm" mükafatı laureatı, tibb elmləri doktoru Mübariz Qasım oğlu Allahverdiyevin anadan olmasından 80 il keçir.

M.Q.Allahverdiyev 1942-ci il noyabrın 19-da Xocalı kəndində anadan olub, 1966-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Institutunu bitirdikdən sonra Qarabağın Naxçıvanik (Pir Camal) kəndinə göndərilib. Bir ilin tamamında iş yeri erməni millətindən olan səhiyyə rəhbərinin fitnəsi ilə məqsədyönlü şəkildə ixtisara salınıb və işsiz qalan M.Q.Allahverdiyev Türkmənistana gedib 1968-ci ilin aprel ayında Taşauz (Dış Oğuz) Vilayətinin Köhnə Ürgənc rayonunda sahə xəstəxanasının baş həkimi vəzifəsinə təyin edilib, həmin ilin sentyabr ayından 1969-cu ilin fevral ayına qədər Türkmənistan Dövlət Tibb İnstitutu nəzdində ixtisaslaşma kursu keçərək ümumi cərrah ixtisasına yiyələnib. 1969-cu ildə ADTİ-nin Normal anatomiya kafedrasının müəllimi vəzifəsinə qəbul edilib, kafedrada assistent, baş müəllim, dosent vəzifələrində çalışıb. 1985-ci ildə Tbilisidə «Budun dəri sinirlərinin makromikroskopik anatomiyası və mieloarxitektonikası» mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Əldə etdiyi dəyərli elmi nəticələr «Bel-oma kələfi, bud sinirləri» adlı monoqrafiyada dolğun əksini tapıb. Elmi-tədqiqat işlərini davam etdirən M.Q.Allahverdiyev 2008-ci ildə «Postnatal ontogenezdə insanın qaraciyərdənkənar öd yollarının vəzi və limfoid aparatlarının struktur-funksional səciyyəsi və morfogenezinin qanunauyğunluqları» mövzusunda doktorluq dissertasiyası müdafiə edib, 2010-cu ildə kafedranın professoru vəzifəsinə seçilib. O, 305 elmi və elmi-kütləvi işin, o cümlədən 4 monoqrafiya və 4 biblioqrafik məlumat kitabının, çoxsaylı dərsliklər və dərs vəsaitlərinin, 2 səmərələşdirici təklifin, işlədiyi kafedranın 90-illik yubileyinə həsr edilmiş üç kitabın müəllifi və həmmüəlliflərindəndir.

Professor M.Q.Allahverdiyev Universitetin ictimai həyatında yaxından iştirak edir. Bacarıqlı və işgüzar alim 1993-2000-ci illərdə ATU-nun Böyük Elmi şurasının Elmi katibi, 2008-ci ildən 2022-ci ilə qədər I MPF Elmi şurasının üzvü olub. Müxtəlif illərdə o, I MPF və Pediatriya fakültələrinin dekan müavini, 5 il (2001-2006) İnternatura şöbəsinin müdiri, «anatomiya», «histologiya» və «patoloji anatomiya» üzrə İxtisaslaşdırılmış müdafiə

şurasının elmi katibi, 19 il insan anatomiyası kafedrasının tədris hissə müdiri, 21 il (1975-1996) Azərbaycan Respublikası Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin katibi, 2000-2006-cı illərdə kafedranın Tələbə Elmi Cəmiyyətinin sədri, 2006-2018-ci illərdə kafedra müdirinin elmi işlər üzrə müavini, 2005-2013-cü illərdə ictimai əsaslarla ATU-nun Mətbuat xidmətinin rəhbəri, 2008-2019-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ATU nəzdində təşkil etdiyi FD 03.013, 2019-2021-ci illərdə FD 2.08 Dissertasiya şuralarının elmi katibi vəzifələrini yerinə yetirib. İstedadlı alim və müəllim kimi tanınan Mübariz Allahverdiyev hazırda «Qarabağ Müharibə Veteranları Birliyinin», «Azərbaycan Respublikası Jurnalistlər Birliyi»nin, nəzəri fənlər üzrə Problem Komissiyasının, Azərbaycan "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin, "Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı"nın Redaksiyası Şurasının üzvü, ATU Rektorunun müşaviridir. O, 2007-2022-ci illərdə «Xocalı soyqırımını tanıtma» İctimai Birliyi Ağsaqqallar Şurasının sədri olub. 2021-ci ildən Nəsimi rayonu Ağsaqqallar Şurasının üzvüdür.

Professor M.Q.Allahverdiyevin 1977-ci ildə «Sosializm yarışının qalibi» döş nişanına, 1999 və 2009-cu illərdə elm, təhsil və tibb kadrları hazırlığındakı xidmətlərinə görə Səhiyyə Nazirliyinin «Fəxri Fərman»larına, 2002, 2012-ci illərdə ATU-nun «Fəxri Fərmanları»na, 2007-ci ildə «Qızıl Qələm» mükafatına, 2010-cu ildə Azərbaycan Respublikasının «Əməkdar müəllimi» fəxri adına, 2022-ci ildə Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Konfederasiyasının "Fəxri Fərmanına" layiq görülməsi alimin fəaliyyətinin diqqətdən kənarda qalmamasının göstəricilərindəndir.

M.Q.Allahverdiyev yüksək səviyyəli pedaqoqluq məharətinə, qayğıkeşliyinə, vətənsevərliyinə, təvazökarlığına, səmimiliyinə, mədəni rəftarı və məntiqli intellekt səviyyəsinə, işgüzarlığına, əmək fədakarlığına görə haqlı olaraq ATU-nun professor-müəllim heyəti və tələbələrinin hörmət və rəğbətini qazanıb.

Mübariz müəllimi anadan olmasının 80-ci ildönümü münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı diləyir, gələcək işlərində yeni uğurlar arzulayırıq.

***ATU-nun İnsan anatomiyası və***
***tibbi terminologiya kafedrasının kollektivi***